# AVDİYA

## PEYĞƏMBƏRİN KİTABI

## GİRİŞ

*«Avdiya»* Kitabı miladdan əvvəl 586-cı ildə Babillilərin Yerusəlimi zəbt etdiklərindən sonra yazılıb. Yəhudanın qədim düşməni Esavın nəslindən olan Edomlular Yerusəlimin süqutuna sevinib şəhərin talanmasında işğalçılara kömək etdilər. Avdiya peyğəmbər Edomun dağılması və məğlubiyyəti barədə peyğəmbərlik etmişdi.

***Kitabın məzmunu:***

1:1-14 Edomun cəzalandırılması
1:15-21 Rəbbin günü

1 [1]Bu, Avdiyaya zühur olan görüntüdür.

***Edom üzərində Allahın məhkəməsi***

Xudavənd Rəbb Edom barəsində
belə deyir:
Biz Rəbdən xəbər eşitdik,
Millətlər arasına
«Qalxın, Edoma qarşı döyüşək!»
deyən qasid göndərildi.
[2]«Bax səni millətlər arasında
kiçildəcəyəm,
Hamı sənə xor baxacaq.
[3]Ey sən qaya[a] çatlarında məskən
salan,
Evini yüksəklərdə quran!
Ürəyinin qüruru səni aldatdı,
Çünki sən qəlbində "Məni kim
yerə yıxa bilər?" dedin.
[4]Sən qartal kimi yuxarı uçub
Yuvanı ulduzlar arasında
qursan da,
Səni oradan endirəcəyəm».
Rəbb bəyan edir.
[5]«Əgər gecə yanına oğrular,
quldurlar gəlsəydi,
Ancaq öz istədikləri qədər
oğurlamazdılarmı?
Əgər üzüm yığanlar sənin bağına
gəlsəydi,
Bir neçə salxımı saxlamazdılarmı?
Amma gör səni nə cür müsibətlər
gözləyir!
[6]Esavın hər şeyi talan ediləcək,
Gizli xəzinələri aşkara
çıxarılacaq.
[7]Səninlə əhd bağlayanların hamısı
Səni ölkəndən qovacaq,
Müttəfiqlərin səni aldadıb məğlub
edəcək.
Səninlə çörək yeyənlər sənə
tələ quracaq,
"Onun ağlı haradadır?" deyəcək».
[8]Rəbb bəyan edir:
«O gün Edomun hikmətli
adamlarını,
Esav dağındakı müdrikləri
məhv edəcəyəm.

a **1:3** *Qaya* – ibrani mətnində *sela* kimi səslənir. Sela Edomun paytaxtının adı idi.
**1:1-14** *Yeş. 34:5-17; 63:1-6; Yer. 49:7-22; Yez. 25:12-14; 35:1-15; Amos 1:11-12; Mal. 1:2-5*

27-31_Dan-Oba Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:00 Page 1094



9Ey Teman,[a] igid adamların
elə qorxuya düşəcək ki,
Esav dağlarının hər sakini qırğında
öldürüləcək.

10Qardaşın Yaquba etdiyin
zorakılığa görə
Sən xəcalət içində qalacaqsan,
Əbədi məhv olacaqsan.[b]
11Yadellilər onun sərvətini aparanda
Sən uzaqda durub tamaşa etdin.
Əcnəbilər onun şəhər
darvazalarından girib
Yerusəlim üçün püşk atanda
Sən də onlardan biri kimi
davrandın.
12Sən gərək Yəhudalı soydaşlarının
Bədbəxtlik günündən zövq
almayaydın,
Həlak olduqları gün
sevinməyəydin,
O əzablı gündə rişxənd etməyəydin,
13Xalqımın fəlakətli günündə
Onların şəhər darvazalarından
girməyəydin,
Başlarına bəla gələn gün
Onların fəlakətini sevinclə seyr
etməyəydin,
Başlarına bəla gələn gün
Onların malına əl uzatmayaydın!
14Sən gərək qaçan Yəhuda
övladlarını öldürmək üçün
Yol ayrıcında dayanmayaydın,
O əzablı gün qurtulanları
Düşmənə təslim etməyəydin!

### *Rəbbin günü yaxınlaşır*

15Axı bütün millətlər üçün Rəbbin
günü yaxınlaşır,
Ey Edom, sən nə cür etdinsə,
sənə də belə ediləcək,
Əməllərinin əvəzi öz başına
gələcək!
16Çünki siz Mənim müqəddəs
dağımda içdiyiniz kimi
Bütün xalqlar durmadan içəcək,
İçib yox olacaq,
Sanki əvvəldən yox idi.

### *İsrailin zəfəri*

17Lakin qurtuluş tapanlar
Sion dağına toplanacaq,
O dağ müqəddəs olacaq.
Yaqub nəsli mülkünə sahib olacaq!
18Yaqub nəsli od,
Yusif nəsli alov,
Esav nəsli isə küləş olacaq,
Yaqub və Yusif nəsli
Esav nəslini yandırıb məhv edəcək.
Esav nəslindən qurtulan
olmayacaq.
Çünki Rəbb belə söylədi.

19Negev sakinləri Esav dağını,
Yamaclı-düzənlikli bölgədə
yaşayanlar Filiştlilərin bölgəsini,
Yəhudalılar Efrayimlə Samariya
torpaqlarını,
Binyaminlilər isə Gileadı
zəbt edəcək.
20Xalahda olan İsrail sürgünləri
Kənanın Sarfata qədər uzanan
torpaqlarını,
Sefaradda olan Yerusəlim
sürgünləri
Negev şəhərlərini zəbt edəcək.
21Xalqı qurtaranlar Sion dağına
çıxıb
Esav dağına hökm edəcək:
Rəbb səltənət sürəcək».

---

a **1:9** *Teman* – Edomun şəhərlərindən biri.
b **1:10** Yaqubla Esav doğma qardaş idi. Yaqub İsraillilərin əcdadı idi. Esav Edomluların əcdadı idi.